Kamran İmanov

# İNNOVASİYALI İNKİŞAF VƏ ƏQLİ MÜLKİYYƏT HÜQUQLARI

Bakı – 2022

**Kamran İmanov,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri.

**İnnovasiyalı inkişaf və əqli mülkiyyət hüquqları. Bakı, 2022**

Bu kitab Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun 21 dekabr 2021-ci il tarixində Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin tərəfdaşlığı ilə "Azərbaycanın inkişaf modeli: Dünən, bu gün və sabah" mövzusunda keçirilən konfransda etdiyi “İnnovasiyalı inkişaf və əqli mülkiyyət hüquqları” adlı təqdimatı əsasında hazırlanmışdır.

**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2022**



*“Müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir”.*

*“Gələcəyimiz – innovasiyalar, texnologiyalar, yaxşı idarəetmə, şəffaflıq və sahibkarlara dövlət dəstəyindədir”.*

Azərbaycan Respublikasının Prezidenti
cənab **İLHAM ƏLİYEV**

# İNNOVASİYALI İNKİŞAF VƏ ƏQLİ MÜLKİYYƏT HÜQUQLARI

Çıxışımı dövlət başçımız cənab İlham Əliyevin sözləri ilə başlayıram:

"***Müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir***".

Qarşımızda duran vəzifələr də cənab Prezident İlham Əliyevin Davos İqtisadi Forumunda açıqlanıb:

"***Gələcəyimiz – innovasiyalar, texnologiyalar, yaxşı idarəetmə, şəffaflıq və sahibkarlara dövlət dəstəyindədir***".

Bu fikirlər sinkretik məna daşıyır və uzaqgörən kreativlik gücə malik olaraq, bu günümüzlə gələcəyimiz arasındakı körpüdür.

Cənab İlham Əliyevin düşüncələri çıxışımın açar sözlərinin – "innovativ inkişaf" və "əqli mülkiyyət" arasındakı vəhdəti açıqlayır.

Çıxışımda ölkəmizdəki iqtisadi və institusional islahatların ƏM ekosisteminə təsiri və ƏM-in dəyişmiş kontekstinin innovasiyalı inkişafa dəstəyi üzərində dayanacağam.

Qeyd etməliyəm ki, ənənəvi mənada "əqli mülkiyyət" ifadəsini işlədərkən, intellektual, yaradıcılıq məhsuluna məxsus olan hüquqlardan söhbət açılır.

**Lakin əqli mülkiyyətin (ƏM) anlayışı və onun dərk edilməsi yenilənir.** Çünki bu institutun fəaliyyət dövriyyəsi ənənəvi kontekstdən fərqli olaraq, müasir zamanda yeni çağırışlarla rastlaşır. Bunun səbəbi isə ilk növbədə cəmiyyətimizin əhəmiyyətli texnoloji dəyişikliklərlə üz-üzə gəlməsidir, ƏM landşaftına artan təsiridir və həmin çağırışların ƏM-in evolyusiyasını anlamaq üçün vacibliyidir. Özü də ƏM texnoloji fenomenə qarşı çıxmamalı, maneə yaratmamalı, əksinə, ona uyğunlaşmalıdır və uyğunlaşır.

**ƏM kateqoriyasının müasir, yeniləşmiş təsəvvürü** onun ikili təbiətinə əsaslanır: ƏM obyekti bir tərəfdən qeyri-maddi aktivdir (hüquqlardır), digər tərəfdən isə qorunma bu obyektlərə obyektiv for-

mada olduğu halda təqdim edilməsidir (maddi obyekt).

## ƏM-in dərk edilməsində dəyişikliklər



Zənnimizcə, "ƏM"-in müasir kateqoriyası anlayışında fiziki və hüquqi şəxslərin əqli fəaliyyət nəticələrinə (ƏFN) yalnız müstəsna hüquqlar yox, onlarla yanaşı bilavasitə ƏFN də nəzərə alınmalıdır, çünki bazarda tələb və təklif kimi hüquqlar deyil, hüquqlar şamil edildiyi ƏFN birbaşa iştirak edir. Əqdlərdə isə qorunan hüquqların həcmi və verilmə qaydaları nəzərə alınır. **Bu cür yanaşma bir tərəfdən ƏM institutunun sinergetikasını, emergentliyini nəzərə alır, hüquq (yurisprudensiya) ilə yanaşı, onun iqtisadiyyatına və sosiologiyasına diqqət yetirir. Digər tərəfdən isə ƏM ekosisteminin institusional dəyişikliklərini gündəmə gətirir.**

Kommersiyalaşma (iqtisadiyyat) və sosial effekt (sosiologiya) ƏM institutunun zəruri hissələrinə çevrildiyi halda, hüquq (yurisprudensiya) sistemformalaşdıran amil kimi çıxış edir və ƏM institutunun nəticələrinin real dəyərləndirilməsinə imkan verir.

Misal üçün, patent və əmtəə nişanları ilə məşğul olan təşkilatı götürək. Bu ƏM strukturu sadəcə xidməti sahə deyil və qorunma sənədlərinin verilməsi ilə kifayətlənməməlidir. Əslində qorunmanın

səmərəliyini nəzərə alan, analitik trendləri ölçən, bazarın rəqabət qabiliyyətinə təsirini göstərən və qorunan obyektlərin sosial hissəsini təhlil edən struktur olmalıdır.

Yeniliklərin iqtisadi amili, kommersiyalaşması olmadığı halda innovasiyalar da yoxdur, müəlliflik hüququ (Copyright) nəzərə alınmadığı halda sosial effekt və kreativ industriyanın nəzərə çarpan effektinin payından imtina etmiş oluruq.

**Nə üçün ƏM-ə ənənəvi yanaşma artıq reallıqları ifadə etmir?** Çünki belə yanaşma mübadilə zamanı yaranan tranzaksiya xərclərini nəzərə almır. Halbuki, mübadilə olan obyektlərin istər xarakteristikalarının ölçülməsinə, istərsə də mübadilə şərtlərinin təmin edilməsinə xərclər mövcuddur. Odur ki, bu xərcləri nəzərə alan neoinstitusionalizm hüquq, iqtisadiyyat və sosiologiya mövqeyindən bu xərclərin minimallaşdırılması üçün müvafiq tələblər irəli sürür.

# Azərbaycan Respublikası Prezidentinin ƏM-in müasir kontekstdə fəaliyyətinə uyğun olan institusional islahatı




**Beləliklə, bir örtük altında sənaye mülkiyyəti (ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları) və müəlliflik hüququ (Copyright) birləşməsi zəruriyyətə çevrilir. Uzun illər bu qollar bir-birindən ayrılıqda fəaliyyətdə idilər. Lakin cənab Prezident İlham Əliyev institusional islahatlar həyata keçirdi.** Əqli Mülkiyyət Agentliyi yaradıldı, onun mandatı həm müəlliflik hüquqları və əlaqəli hüquqlar sahəsini, həm də sənaye mülkiyyəti sahəsini əhatə edir. Agentliyin tabeliyində iki mərkəz –

Patent və Əmtəə Nişanlarının Ekspertizası və Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzləri yaradılıb, Respublika Elmi-Texniki Kitabxanası tərkibinə verilib və Texnologiyaların kommersiyalaşdırılması və transferi Mərkəzinin yaradılması ilə bitirilir.

**Beləliklə, aparılmış islahatlar nəticəsində özündə vəhdət təşkil edən üçlük formulu: koqnitivlik, kreativlik və kommersiyalaşmanı (3K) birləşdirən özünəməxsus idarəetmə modeli aktuallaşmışdır, yəni biliklərin əldə və dərk edilməsi, yeni biliyin yaradılması və kommersiyalaşaraq, innovasiyaya çevrilməsinə xidmət edən struktur.**

Dövlət başçısının göstərişlərindən irəli gələn çevik, daha yığcam və daha məqsədyönlü struktur vasitəsilə sahələrin idarə edilməsi, şəffaflığın, səmərəliyin və cavabdehliyin təmin olunması məqsədilə Əqli Mülkiyyət Agentliyinin yaradılması və bu modeli reallaşdıran publik hüquqi şəxs institutu öz töhfələrini verməkdədir. Dövlət-inzibati funksiyaları yerinə yetirən publik hüquqi şəxs eyni zamanda fəaliyyətlərindən əldə olunmuş vəsaitlər hesabı-

na saxlanma və digər xərclərinin optimallaşdırılmış üsullarla idarə olunmasına malikdir.

Belə ki, hazırda çalışan dövlət qulluqçularının sayı 43 nəfər, işləyənlərin ümumi sayı isə 32 nəfər azaldılaraq, il ərzində bir milyon 100 min manatdan artıq vəsaitə qənaət etmək mümkün olmuşdur. Dövlət büdcəsindən yalnız Əqli Mülkiyyət Agentliyinin dövlət qulluqçularına bərabər tutulan işçilərinin əmək haqları maliyyələşdirilir. Agentliyin saxlanma xərcləri və tabeliyində olan iki mərkəzin bütövlükdə fəaliyyəti özünümaliyyələşdirmə prinsipi əsasında həyata keçirilir. **Bu isə institusional islahatın effektivliyinin təsdiqidir.**

**Məhz buna görə əqli mülkiyyət sisteminin qarşısında duran vəzifələr ölkənin innovasiya siyasəti ilə müəyyən edilir və ölkədə həyata keçirilən iqtisadi islahatlara xidmət edir.**

**Bəs iqtisadi inkişafın və ƏM-in qorunmasının bir-birinə təsiri nə cürdür?**

Dünya təcrübəsi əsasında aparılan araşdırmalar göstərir ki, ƏM-in yaradılması və istifadəsi səviyyəsi və ölkənin iqtisadiyyatı arasında bir başa müsbət əlaqə mövcuddur. Misal üçün, bir neçə xü-

susən intensiv inkişafda olan ölkə götürüb, ÜDM-ə və ixtiralara olan iddiaların sayı arasındakı korrelyasiya (asılılıq) əlaqəsinə baxaraq, görürük ki, Koreyada 1970-2018-ci illər zaman kəsiyində "ÜDM-in artımı və "ixtiralara iddia olunan sifarişlər" göstəriciləri arasında korrelyasiya əmsalı r = 0,98-ə bərabərdir və keyfiyyətcə belə əlaqə "çox yüksək" kimi qiymətləndirilir. Çində həmin parametrlər üçün 2000-2018-ci il zaman kəsiyində korrelyasiya əmsalı r = 0,99 və bu da "çox yüksək" deməkdir.

Göründüyü kimi, ƏMH-nın qorunması innovasiyaları, innovativ inkişafı stimullaşdırır, ÜDM-in artımı multifaktorlu göstərici olduğuna görə, onun yaratdığı korrelyasiya asılılığı bir sıra faktordan asılılıqdır. **Lakin bir amil şəksizdir: ixtiralara iddiaların azalması iqtisadiyyatın artımına gətirmir.**

**Digər sualımız: ƏM-in innovasiyalı inkişafa müsbət təsiri nədən ibarətdir?**

Araşdırmalar göstərir ki, ƏM hesabına innovasiyalı iqtisadiyyatda əldə edilən zənginliyin mənbəyi – **texnoloji, intellektual və informasiyalı rentadan ibarətdir**.

## Əqli mülkiyyətin və innovasiyalı iqtisadiyyatın qarşılıqlı təsiri




Sonda isə cənab Prezident İlham Əliyevin həyata keçirdiyi ƏM sahəsindəki islahatların nəticələrinə baxaq.

# Azərbaycan üzrə (2018-2020-ci illər) ixtiralarla (ümumi) bağlı göstəricilərin dinamikası




2019-cu illə müqayisədə artım – **108%**;
Ümumi qüvvədə olan patentlərin sayı – **252** (artım **107%**);
PCT patentləri sayı **57** (artım **114%**);
Əsas sahələr – kimya, metallurgiya.

**Azərbaycan üzrə (2018-2020-ci illər) ixtiralarla** (yerli rezidentlər) **bağlı göstəricilərin dinamikası**




Artım – **110%**

Göründüyü kimi, ixtiraçıların əldə etdiyi patentlərin sayı artır, xüsusən milli iddiaçıların (rezidentlərin).

Bununla yanaşı, ixtira potensialının reallaşması əmsalı da nəzərə çarpan dərəcədə yüksəlir.

## Azərbaycan üzrə (2018-2020-ci illər) ixtira potensialının reallaşdırılması əmsalının dinamikası və trend




ƏM-in digər qolu – müəlliflik hüququna verilən qorunma sənədlərinin də artımı daim müşahidə olunur və ən vacibi – Azərbaycanın kreativ industriyası (müəlliflik hüququna əsaslanan sənaye) 5,3%-ə çatıb, inkişaf etmiş ölkələr səviyyəsindədir.

## Əsərlərin qeydiyyatı və müəlliflik hüququ ilə bağlı statistika (2018-2021-ci illər)




* 2021-ci il üzrə verilən proqnoza görə.

**Azərbaycanın kreativ industriyasının** (müəlliflik hüququna əsaslanan sahələrin) **ÜDM-də payı**




Təbiidir ki, institusional islahatların nəticəsi öz əksini beynəlxalq reytinqlərdə tapır.

**Azərbaycanın "əqli mülkiyyətin qorunması"** (Qlobal Rəqabətqabiliyyətlilik İndeksi, Dünya İqtisadi Forumu) **və "adambaşına düşən ÜDM"** (alıcı qabiliyyəti pariteti əsasında) **üzrə göstəriciləri arasında əlaqə**




Korrelyasiya 0,9 – güclü

Belə ki, Davos İqtisadi Forumunun "Rəqabətqabiliyyətlilik İndeksi"ndə **Azərbaycan 141 ölkə arasında "mülkiyyət hüquqlarının qorunması" üzrə 37-ci yerdə və "əqli mülkiyyətin qorunması" göstəricisinə görə 30-cu yerdə qərarlaşıb. Burada diqqəti cəlb edən odur ki, bu göstərici ardıcıl olaraq yaxşılaşır: 2016-2017-ci illərdə – 71-ci, 2017-2018 – 37-ci, sonra 36-cı və nəhayət 2019-cu ildə 30-cu yerdə qərarlaşıb.** Bu göstərici üzrə Azərbaycan bir neçə Avropa ölkələrini üstələyib, o cümlədən Portuqaliya (32-ci yer), Çexiya (34-cü yer), Sloveniya (38-ci yer) və s.

**Xüsusi diqqət yetirirəm!**

Azərbaycan əhalisi zənginləşdikcə (adambaşına düşən ÜDM artdıqca), "əqli mülkiyyətin qorunması" indeksi də yaxşılaşır. Bu iki göstəricilər arasında sıx əlaqə (korrelyasiya) 0,9-a bərabərdir.

Müsbət trendləri və nəticələri davam etdirmək mümkündür. Lakin ən mühümü odur ki, cənab Prezident İlham Əliyevin ƏM sahəsində apardığı **konseptual və institusional** islahatlar ƏM-in yeniləşən mahiyyətinə uyğundur və sistemli xarak-

ter daşıyaraq, ölkənin iqtisadi islahatlarına qulluq edir.

Bu gün dekabr ayının 21-dir. Bildiyimiz kimi dekabrın 21-22-i Qış gündönümü günüdür, il ərzində sutkanın ən qaranlıq, gecənin gündüzü maksimal dərəcədə üstələyən günüdür. Günəş isə ən yastı trayektoriya ilə yüksəlir. Həmin olay 3 gün davam edir.

Dekabrın 24-dən başlayaraq, günəş tədricən güc yığaraq dirçəlişə doğru gedir: sutkanın işıqlı vaxtı artmağa başlayır, qaranlıq vaxtı azalır. Günəş yüksələn trayektoriya ilə səmada hərəkət edir.

Təkrar edirəm: bu prosesə dekabrın 24-də start verilir.

Yadıma Ulu öndərin sözləri düşür: "**Gün gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq**". Bu gün gəlib və biz onun müasirləriyik.

Təşəkkür edirəm.

# ƏLAVƏ

- Azərbaycan ÜƏMT-nın Büdcə və Proqram Komitəsinə seçilib və rotasiya əsasları ilə Koordinasiya Komitəsində təmsil olunacaq. Azərbaycan nümayəndəsi 2019-2021-ci illərdə müəllif hüququ üzrə 1886-cı ildən qüvvədə olan və 170 ölkəni birləşdirən məşhur "Ədəbi və bədii əsərlərin qorunması haqqında" Bern Konvensiyası Assambleyasının sədri olub.
- 2021-ci ilin 4 oktyabr tarixində Azərbaycan nümayəndəsi ÜƏMT-nın Müəlliflik hüququna dair Müqaviləsinin Assambleyasının sədri seçilmişdir. Azərbaycanın 2006-cı ildən üzvü olduğu bu Müqaviləyə hazırda 110 ölkə qoşulmuşdur.
- Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən olduqca uğurlu islahatlar silsiləsinin ikinci dalğası ölkəmizin inkişaf gündəmini dəyişməklə, beynəlxalq aləmdə də geniş əks-səda yaradır, diqqətlə izlənir və yüksək dəyərləndirilir. Nüfuzlu beynəlxalq təşkilatların reytinqləri ilə yanaşı, ÜƏMT-nın təsis etdiyi **"Əqli mülkiyyət sahəsində ən yaxşı müəssisə (WIPO IP Enterprise Trophy)" mükafatının bu ilki nominantı** Azərbaycan Respublikasından qurum seçilmişdir.
- Mükafatın üzərində də qeyd olunduğu kimi, bu mükafat son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi

ilə ölkəmizdə həyata keçirilən davamlı, uğurlu iqtisadi islahatlar modelinin nəticələrinə və bu islahatların reallaşdırılması üçün investisiyaların cəlb olunması, innovasiyaların dəstəklənməsi və innovativ fəaliyyətin stimullaşdırılmasına xidmət edən ƏM sahəsinin inkişafı üzrə görülən işlərə, bir sözlə, bütövlükdə möhtərəm cənab Prezidentin müəllifliyi ilə reallaşdırılan islahatlara verilən mükafatdır.

- Azərbaycanın tələbələri və şagirdləri Avrasiya patenti üzrə müsabiqələrdə Agentliyin və Təhsil Nazirliyinin dəstəyi ilə birinci və mükafat yerlərə və Laureat adlarına layiq görülmüşlər.
- Sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı sahəsində “vahid pəncərə” prinsipi tətbiq edilməsi, açıqlıq və şəffaflığın təmin edilməsi məqsədilə Agentlik tərəfindən PƏNAH rəqəmli informasiya sistemi istifadəyə verilmiş və nəticədə göstərilən dövlət xidmətlərinin səviyyəsi əvvəlki illərlə müqayisədə yüksəlmiş, ixtira və patent fəallığının artırılması istiqamətində tədbirlər gücləndirilmiş və sistem Hökumət Ödəniş Portalına inteqrasiya olunmuşdur.
- Əqli mülkiyyət sahəsində aparılan islahatlar Avrasiya Patent Təşkilatı, eləcə də RF-nın Əqli Mülkiyyət üzrə Federal Xidmətinin rəhbəri Qriqori İvliyev tərəfindən yüksək qiymətləndirilmiş və Q.İvliyev bunu dəfələrlə öz çıxışlarında xüsusi olaraq vurğulamışdır.

- Əqli mülkiyyət obyektləri, o cümlədən sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı sahəsində fəaliyyətin səmərəliliyinin və göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə "Çağrı mərkəzi" yaradılmışdır.
- Universitetlərdə və elmi müəssisələrdə 3.0 (təhsil + araşdırmalar + kommersiyalaşdırma) universitetlərin yaradılması ilə bağlı IP-ofislərin texnologiyaların dəstək ofislərinə çevrilməsi və Əqli Mülkiyyət Agentliyinin axtarış şəbəkəsinə qoşulması, startap və spinautların dəstəklənməsi ilə bağlı işlər Əqli Mülkiyyət Agentliyi Təhsil Nazirliyi və ÜƏMT ilə birgə aparılır.
- Bunlarla yanaşı, ƏM üzrə mütəxəssislərin qıtlığı nəzərə alınaraq, Bakı Dövlət Universitetində "Əqli mülkiyyət" kafedrası yaradılıb və Agentliyin aparıcı mütəxəssisləri öz maddi-texniki bazası əsasında orada tədris edəcək.
- Mövcud problemlərdən biri də kiçik və orta sahibkarlıq subyektlərində (KOS) ƏM mədəniyyətinin gücləndirilməsi və bu növ sahibkarların innovasiyalara cəlb edilməsidir.
- KOS-ların innovasiyalı fəaliyyətə cəlb edilməsi və iqtisadi rolunun artırılması məqsədilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Əməkdaşlıq haqqında Memorandum və birgə fəaliyyət planı həyata keçirilir, Agentlik tərəfindən KOS-lar üçün "İnnovasiyalara maneə törədən" sorğu keçirilmiş və nəticələri təqdim edilmiş və "İnnovasiyalı inkişaf və iqtisadi

islahatlar: əqli mülkiyyətin və texnologiyaların kommersiyalaşdırılmasının rolu” mövzusunda konfrans keçirilmişdir.

# Mündəricat

İnnovasiyalı inkişaf və
əqli mülkiyyət hüquqları ........................................ 5

Əlavə ........................................................................... 22

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.